# Çağdaş tarixin sönməz əfsanəsi

## Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəl dünyasını dəyişdi

**XX əsrin ən nüfuzlu siyasətçilərindən və dövlət xadimlərindən biri - qardaş Türkiyənin 9-cu prezidenti olmuş Süleyman Dəmirəlin dünyasını dəyişməsi ötən günün ən ağır xəbəri oldu. Fəaliyyətini Türkiyənin möhkəmlənməsinə həsr etmiş bu şəxs 1965-1993-cü illərdə 7 fərqli hökumətdə toplam 10 il 5 ay müddətində baş nazir işləyib. Qardaş ölkədəki bütün təlatümlü vaxtlarda siyasi elitanın tərkibinə daxil olmağı bacarmış S.Dəmirəl çağdaş tarixin canlı əfsanəsi sayılırdı. Türkiyənin müvəqqəti baş naziri Əhməd Davudoğlu özünün Twitter hesabında S.Dəmirəl haqqında təəssüratlarını belə bölüşüb: "Özünəməxsus üslubu və uzunmüddətli siyasi həyatında ölkəmizə verdiyi xidmətlərə görə daim xatırlanacaq bir siyasətçi".**





Türkiyə tarixinə ən uzunömürlü prezident kimi düşən S.Dəmirəl srağagecə 91 yaşında vəfat edib. Məlumatda bildirilir ki, S.Dəmirəl bu il mayın 13-də ürək çatışmazlığı və kəskin tənəffüs yolları infeksiyası diaqnozu ilə xəstəxanaya yerləşdirilib. "Son günlər onun vəziyyəti ağırlaşmış, iyunun 16-da tənəffüs və ürək funksiyalarının kəskin pozulması müşahidə olunmuşdur. Bütün səylərimizə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb. Süleyman Dəmirələ Allahdan rəhmət, yaxınlarına və türk millətinə başsağlığı diləyirik" - deyə məlumatda deyilir.

### HƏYAT YOLU

S.Dəmirəl 1 noyabr 1924-cü ildə Türkiyənin İsparta şəhərinin İslamköy kəndində anadan olub. İlk təhsilini İslamköydə, orta məktəbi İspartada tamamlayıb. 1949-cu ildə İstanbul Texniki Universitetinin İnşaat fakültəsindən məzun olub. Həmin il Elektrik İşləri İdarəsində işləməyə başlayıb. 1953-cü ildə Seyhan anbarının tikintisində inşaat mühəndisi olaraq işə başlayıb. Elə həmin dövrdə baş nazir Adnan Menderesin diqqətini çəkən mühəndislərdən biri olub. 1954-cü ildə Dövlət Su İşləri İdarəsində rəhbər vəzifələrdən birinə gətirilib. Bir il sonra - 1955-ci ildə 31 yaşında ikən bu qurumun müdiri təyin edilib. O, 1954-1955 illərdə ABŞ-da su anbarı, sulama sahələri üzrə kurslar keçib. S.Dəmirəl 1954-cü ildə Türkiyə Su Anbarları İdarəsinin sədri, 1955-ci ildə isə Dövlət Su İşləri üzrə İdarəsində sədr vəzifəsində işləyib. Siyasi həyatına 1962-ci ildə Ədalət Partiyasında İdarə heyətinin üzvü kimi başlayıb. 28 noyabr 1964-cü ildə Ədalət partiyasının sədri seçilib. S.Dəmirəl bir il sonra ortaq hökumətdə baş nazirin müavini vəzifəsində çalışıb.

### ƏN GƏNC PARTİYA SƏDRİ, ƏN GƏNC BAŞ NAZİR...

1965-ci ilin oktyabr ayında seçkilərdə Ədalət Partiyası 53 faiz səs toplayaraq, təkbaşına iqtidara gəlib. S.Dəmirəl həmin seçkilərdə İsparta şəhərindən millət vəkili seçilib və Türkiyənin 12-ci baş naziri kimi hökuməti qurub. 1969-cu ildə keçirilən seçkilərdə də S.Dəmirəlin rəhbərlik etdiyi Ədalət Partiyası təkbaşına iqtidar olub. 12 mart 1971-ci ildə baş nazir postundan istefa verib. S.Dəmirəl 1971-1980-ci illər arasında 1975, 1977 və 1979-cu illərdə 3 dəfə hökumət qurub. 1980-ci ildə hərbi çevrilişdən sonra tutduğu vəzifədən azad edilib. Bundan sonra o, 7 il siyasətdən kənarda qalıb. 1987-ci ildə yenidən siyasətə qayıdıb. Həmin il Doğru Yol Partiyasına (DYP) sədr seçilib. 29 noyabr 1987-ci ildə keçirilən parlament seçkilərində İsparta şəhərindən millət vəkili kimi parlamentə girib. 20 oktyabr 1991-ci ildə keçirilən seçkilərdə DYP Sosial-Demokrat Xalq Partiyası ilə birlikdə Türkiyənin 49-cu hökumətini qurub. S.Dəmirəl həmin hökumətdə baş nazir postunda olub. S.Dəmirəl Türkiyənin ən gənc partiya sədri, ən gənc baş naziri və İsmət İnönüdən sonra ən uzunmüddətli baş naziri olmuş şəxsdir. 6 dəfə İspartadan millət vəkili seçilib, 7 il siyasi həyatına qadağa qoyulsa belə, 7 dəfə hökumət qurub. 16 may 1993-cü ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən Türkiyənin 9-cu prezidenti seçilib. S.Dəmirəl 16 may 2000-ci ilə qədər Türkiyənin prezidenti olub.




### 1967-Cİ İLDƏ BAKIDA OLUB

S.Dəmirəl 1966-cı ildə Türkiyənin baş naziri olan zaman SSRİ-Türkiyə münasibətlərində yaranan soyuqluğu aradan qaldırmaq üçün Moskvaya səfər edir. Moskva ilə bərabər, keçmiş SSRİ-nin başqa böyük şəhərlərinin də qonağı olur. Daşkənd səfərindən sonra isə sonradan tez-tez gələcəyi Bakının qonağı olur. Bakı S.Dəmirəlin yaddaşında onu ən səmimi qarşılayan şəhər kimi qalır. Bakıdan sonra S.Dəmirəl Sumqayıta yola düşür. S.Dəmirəl Bakıya ilk səfərini sonradan belə xatırlayacaqdı: "Mən 1967-ci ildə Türkiyənin baş naziri olaraq Bakını ziyarət etdim, o zaman Sovetlər Birliyi ilə Türkiyə arasında münasibətlər yeni yaranırdı. Başlanğıc idi. O zaman münasibətlər qapalı idi. Bu ziyarət zamanı Bakı məni çox gözəl qarşıladı. Sanki Türkiyənin hər hansı bir yerində, İzmirdə, Adanadakı kimi coşğu ilə qarşılandım. Bunu heç unutmuruq".

Onun ümummilli lider Heydər Əliyevlə bağlı xatirələri tükənməz idi: "80-ci illərdə Heydər Əliyevi təqibə başladıq. Yəni bir türk lideridir, necə bir plan cızacaq, o planı ki, heç kimin təxmin etmədiyi bir zamanda - çünki Sovetlər Birliyinin dağılacağını kimsə zənn etmirdi. Müstəqil dövlətlərin əmələ gələcəyini kimsə zənn etmirdi. Bu müstəqil dövlətlər çıxsalar, nə edəcəklər, ayaqda dura biləcəklər, ya yox? Onu kimsə təxmin etmirdi. Belə bir zamanda Naxçıvana gəldi. Yəni Moskvada ona verilmiş böyük vəzifəni buraxmaq məcburiyyətində qaldı. Naxçıvana gəldiyi zaman biz ona olan borcumuzu yerinə yetirdik. Mən hökumət başçısı idim. Ankaraya gəldi, oturduq, danışdıq. Bakı qarışmışdı. Ayrı-ayrı qruplar iqtidar dalınca qaçırdı. Bizim üçün, Türkiyə üçün əsas olan hadisə - heç olmasa bu dəfə Azərbaycan Respublikası olmalı və yüksələn bayraq enməməli idi. Rəsulzadənin bəyanatı yerinə yetirilməmişdi, bu dəfə yetirilməlidir. Yəni Azərbaycandakı dostlarımız, tanışlarımız, qardaşlarımız iqtidar mücadiləsi üçün bu fürsəti qaçırsalar, pis olar. Bizim Azərbaycana baxışımız hər zaman belə olub. Atatürk gözəl söyləmişdi: "Azərbaycanın kədəri kədərimiz, sevinci bizim sevincimizdir". Və gerçəkdə ondan artıq bir şey oldu - Sovetlər Birliyi dağıldı, Azərbaycan müstəqilliyini əldə etdi".

### XX ƏSRİN ƏN NÜFUZLU SİYASƏTÇİLƏRİNDƏN BİRİ

Özünün Facebook səhifəsində millət vəkili Aydın Mirzəzadə yazıb ki, S.Dəmirəlin fəaliyyəti Türkiyənin möhkəmlənməsində, dövrünün ağır problemlərinin həllində böyük rol oynayıb: "Prezidentliyi dövrünün SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin meydana gəlməsi vaxtına düşməsi həqiqətən də tarix üçün böyük bir şans oldu. Süleyman Dəmirəl yeni türk dövlətlərinin ayaq üstə durmasına misilsiz kömək etdi, yeni siyasi düzənin arxitektorlarından biri oldu". Millət vəkili bildirir ki, S.Dəmirəl Azərbaycanın, Azərbaycan xalqının Böyük Dostu idi: "Hər bir kəs onun Azərbaycana necə dəstək verdiyi böyük işləri xatırlayır. O, uğurumuza sevinir, dərdimizə dərindən şərik olurdu. O, öz xarizması və müdrik siyasəti ilə adını tarixə yazdı. İnanıram ki, hələ uzun müddət siyasətdə Dəmirəl yanaşması xətti aparıcı xətlərdən biri olacaq". A.Mirzəzadə hesab edir ki, S.Dəmirəlin adı Azərbaycanda əbədiləşdirilməyə layiqdir: "Onun adına orta məktəblər, küçələr verilməli, təqaüd təsis edilməlidir. Nəticədə bu, böyük türk dövlət xadiminin sonsuz zəhmətinə misilsiz hörmət olardı".

### DƏMİRƏLDƏN MƏŞHUR KƏLAMLAR

- "50 ildən çox ictimai xidmətim, 35 illik siyasət həyatım, 7 illik prezidentliyim boyunca demokratiyanın və konstitusiya təşkilatlarının güclənməsi, demokratik qaydaların işləməsi üçün mübarizə etdim"
- Şapkanın demokratiyada bir simvol halına gəldiyini söyləyərək: "Şapka mənim deyil, millətin indi"
- "Mənə sağçılar adam öldürür dedizdirə bilməzsiniz"
- "Elektrikin kommunisti də olur"
- "Egey bir yunan gölü deyil, Egey bir türk gölü də deyil, Egey bir göl deyil"
- "Dünən dünəndir, bu gün bu gündür"
- "Dünənki günəşlə bugünkü paltar qurumaz"
- "Yumor bir yumruqdur, nə zaman kimə vuracağı bəlli olmaz"
-"Məmləkət məsələləri bir parkda oturaraq həll edilsəydi, çox böyük bir park etdirər, həmişə birlikdə içində oturardıq"
- Qaz çətinliyi üçün hökumət nə kimi tədbirlər alır sualına cavab olaraq: "Məmləkətdə qaz var"
-"Özüm üçün bir şey istəyirəmsə, namərdəm"
- "Qırx gündə balqabaq yetişməz"
- "Bizə plan deyil, plov lazım"
- "Mənim şapkam tətildə də çalışır"
- "Bu şapkanı millət yaratdı, qardaşım"
- "Bu şapkayla 6 dəfə getdim, 7 dəfə gəldim"



### DƏMİRƏL HARADA DƏFN EDİLƏCƏK?

S.Dəmirəlin dəfn ediləcəyi yer açıqlanıb. 91 yaşında həyatını itirən S.Dəmirəl üçün xüsusi mərasim təşkil ediləcək. Mərasimə çox sayda əcnəbi rəsmi - dövlət və hökumət başçısının qatılacağı gözlənilir. O, İslamköydə dəfn ediləcək. Məzarı isə Süleyman Dəmirəl Demokratiya Müzeyi və Külliyəsinin də olduğu İslamköydəki Çalca Təpədə olacaq. Onun üçün 10 kvadratmetr sahəsi, 3 metr dərinliyi olan xatirə kompleksi ötən illərdə hazırlanıb. Məzarın yanında isə S.Dəmirəlin əlində şapkası olan heykəli var.

**Hazırladı: Azər NURİYEV**